**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il 11 dekabr tarixli 07/07s nömrəli sərəncamı ilə təsdiq edilmişdir.**

# Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2021-ci il üçün Keyfiyyət sahəsində məqsədləri

Statistika sistemində keyfiyyətin idarə edilməsi sisteminin qurulması, statistik istehsal proseslərinin idarə olunmasının səmərəliliyinin artırılması və idarəetmənin asanlaşdırılması məqsədilə Dövlətstatkomun 2021-ci il üçün keyfiyyət sahəsində əsas məqsədləri aşağıdakılardır:

- ❖ Əhalinin siyahıyaalınması üzrə elektron məlumat sisteminə daxil edilmiş məlumatların emalı və çıxış cədvəllərinin alınması ilə bağlı nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi;
- ❖ "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı" üzrə icrası 2021-ci ildə nəzərdə tutulan tədbirlərlə bağlı iş planının vaxtında və keyfiyyətlə yerinə yetirilməsi;
- ❖ Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrindən statistika orqanları üçün irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə icrası;
- ❖ Statistik işlər proqramında nəzərdə tutulmuş tədbirlərin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsinin təmin olunması;
- ❖ Yerli statistika orqanlarının fəaliyyətinin təhlil edilməsi və Dövlət Statistika Komitəsinin rəhbərliyinə məlumat verilməsi;
- ❖ Dövlət Statistika Komitəsinin Keyfiyyətin idarə edilməsi sisteminin (KİS) tətbiq edildiyi yerli statistika orqanlarının fəaliyyətinin İSO 9001:2015 beynəlxalq standartının tələblərinə uyğun təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirilməsi və digər yerli statistika orqanlarında KİS-in tətbiqi;
- ❖ DESAP özünüqiymətləndirmə anketinin Dövlət Statistika Komitəsinin struktur bölmələri tərəfindən tətbiqi;
- ❖ Məlumatların və metaməlumatların aktuallığının saxlanılması, onların müvafiq standart formada yayılması yolu ilə daha geniş istifadəçi auditoriyasına nail olunması üçün tədbirlərin görülməsi;
- ❖ "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə icrası üçün statistik informasiya dəstəyinin göstərilməsi;
- ❖ Keyfiyyətə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi yolu ilə ilkin və yekun məlumatlarda yol verilən xətaların minimuma endirilməsi, məlumatların keyfiyyətinin daha da yüksəldilməsi;
- ❖ Statistika proseslərinin və KİS-in elektronlaşdırılması işlərinin davam etdirilməsi;
- ❖ Statistika sisteminin İKT avadanlığının davamlı olaraq yenilənməsi;
- ❖ Milli statistik təsnifatlar sisteminin beynəlxalq standartlara uyğun inkişafı üçün müvafiq tədbirlərin görülməsi;
- ❖ "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"ndan statistika orqanları üçün irəli gələn vəzifələrə dair tədbirlərin vaxtında və keyfiyyətlə icrası;
- ❖ Azərbaycan Respublikasında hasilat sənayesində şəffaflıq üzrə rəsmi statistika məlumatlarının ictimaiyyətə açıqlanmasının təmin edilməsi;
- ❖ "Azərbaycanın Milli Statistika Sisteminin Qlobal Qiymətləndirilməsi" hesabatında verilmiş tövsiyələrin icrası istiqamətində zəruri tədbirlərin görülməsi;
- ❖ İnzibati məlumatlardan rəsmi statistika məqsədləri üçün istifadə imkanlarının artırılması yolu ilə respondentlərin üzərinə düşən məlumat yükünün azaldılması;
- ❖ İstifadəçi tələbatı nəzərə alınmaqla yeni statistik məhsulların istehsalı istiqamətində müvafiq işlərin görülməsi;
- ❖ İstifadəçilərin məmnunluğunun maksimum təmin edilməsi və istifadəçi tələbatının öyrənilməsi məqsədilə bu istiqamətdə müvafiq işlərin həyata keçirilməsi;
- ❖ İnformasiya təhlükəsizliyi sisteminin işlək vəziyyətdə saxlanılması və təkmilləşdirilməsi üçün müvafiq tədbirlərin görülməsi;
- ❖ KİS-in sənədlərinin tətbiqi vəziyyətinin nəzarətdə saxlanılması və uyğunsuzluqlar aşkar edildikdə müvafiq təshihedici tədbirlərin görülməsi;
- ❖ Kütləvi informasiya vasitələri ilə əlaqələrin daha da genişləndirilməsi;
- ❖ Dövlət proqramlarının, strategiyaların, fəaliyyət planlarının, fərmanların, sərəncamların, Azərbaycan Respublikası Prezidentinin və Birinci vitse-prezidentinin tapşırıqlarının, tövsiyələrinin icrası ilə bağlı aidiyyəti tədbirlərin görülməsi.